**Azərbaycan Respublikasının**
**Fransadakı Səfirliyi**

**Haradan:** SPRS
**Haraya:** MRTİ
**Məlumat üçün:** MBAV, SVŞN, SMSK, SVYN, SBRS, NNAT, NBMT, SBRL
**Çıxış nömrəsi:** SPRS/040/16
**Tarix:** 02.02.2016
**Sənəd necə göndərilir:** *Elektron poçt*
**Səhifələrin sayı:** *2*

**Məhdudluğu qrifi:** *Xidməti*
**Təciliiyi:** *Adi*
**Vacibliyi:** *Vacib*

**Məruzə üçün:** Nazir
Nazir müavinləri A.Əzimov və X.Xələfov
AR Prezidentinin Administrasiyası

**Məsələyə dair**: *ATƏT-in Minsk Qrupunun fransalı həmsədri ilə keçirilmiş görüş*

**Xülasə:**

Cari il fevralın 1-də səfir E.Əmirbəyov ATƏT-in Minsk Qrupunun fransalı həmsədri Pyer Andriyö ilə görüş keçirmişdir.

Söhbət zamanı səfir 26 yanvar tarixində Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasında müzakirə edilən Robert Volterin müəllifi olduğu ***"Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində zorakılığın artması"*** və Militsa Markoviçin müəllifi olduğu ***"Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi"*** adlı qətnamələrlə əlaqədar ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən verilmiş qərəzli bəyanatla bağlı Azərbaycanın sərt və prinsipial mövqeyini həmsöhbətinin diqqətinə çatdırmışdır (Nazir E.Məmmədyarovun öz fransalı həmkarına məsələ ilə bağlı ünvanladığı məktub hələ keçən həftə ünvan sahibinə çatdırılmışdır). Səfir ATƏT-in Minsk Qrupu həmsədrlərinin sözügedən bəyanatlarla bağlı göstərdiyi təzyiqin digər bir beynəlxalq təşkilatın işinə qarışmaq kimi qiymətləndirildiyini vurğulayaraq, onların bu fəaliyyətinin münaqişənin həllinə yardım etmədiyini, əksinə bu fəaliyyətin Ermənistanın destruktiv mövqeyinin möhkəmlənməsinə xidmət etdiyini və destruktiv səciyyə daşıdığını nəzərinə çarpdırmışdır. Azərbaycanda, Minsk Qrupunun münaqişənin həllinə deyil, onun dondurulmasına çalışdığı rəyinin formalaşdığı və Minsk Qrupunun yararsız fəaliyyətinə qarşı istər ölkə rəhbərliyi, istərsə də ictimaiyyət tərəfindən etirazın kəskin artdığını həmsöhbətinin bildirmişdir.

P.Andriyö cavabında AŞPA-da müzakirə olunmuş qətnamələrlə bağlı mövqeyin yalnız Fransanın deyil, hər üç həmsədr ölkənin mövqeyi olduğunu söyləmişdir. O, həmsədrlərin sözügedən qətnamələrin (xüsusilə də R.Volterin

qətnaməsi nəzərdə tutulur) Minsk Qrupunun fəaliyyətinə xələl gətirməsini düşündüklərini qeyd etmişdir.

Səfir bu fikirlə qəti şəkildə razılaşmayaraq, qətnamə layihəsinin mətnindən də göründüyü kimi bu təşəbbüsün heç də Minsk Qrupunun fəaliyyətini əvəz etmək məqsədi daşımadığını vurğulamışdır. Səfir bildirmişdir ki, R.Volterin, AŞPA tərəfindən 2005-ci ildə qəbul edilmiş, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini pisləyən qətnaməyə istinad edərək hazırladığı sənəd Minsk Qrupunun fəaliyyətinə heç bir mənfi təsir göstərməyəcəkdi, əksinə sözügedən qətnamənin həmsədrlərin səylərinə dəstək olacağı açıq görünürdü. Lakin münaqişənin ədalətli həllinin əldə edilməsi baxımından səmərəsiz çalışan həmsədrlərin bu "təxribatçı fəallığı" onların obyektivliyini bir daha ciddi şübhə altına qoymuşdur.

P.Andriyö cavabında Azərbaycanın reaksiyasından xəbərdar olduğunu bildirmişdir. Minsk Qrupunun hər iki münaqişə tərəfinin tənqidlərinə məruz qaldığını, məsələn ötən ilin noyabr ayında Azərbaycan tərəfindən erməni helikopteri vurulan zaman Ermənistan tərəfinin Minsk Qrupu həmsədrlərinin Azərbaycana təzyiq göstərməməkdə günahlandırdığını söyləyərək özlərinə haqq qazandırmağa çalışmışdır.

Səfir E.Əmirbəyov cavab olaraq, iki məsələ arasında paralel aparılmasının təmamilə yersiz olduğunu həmsöhbətinin diqqətinə çatdırmışdır. O, Ermənistan Silahlı Qüvvələrinə məxsus helikopterin Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazilərində provokasiya xarakterli uçuşlar keçirdiyini və onun Azərbaycan mövqelərinə hücüm etməyə cəhd edərkən vurulduğunu xatırlatmışdır. Ermənistanın münaqişənin həllində maraqlı olmadığını və bütün təklifləri rədd etdiyini vurğulayan səfir, hətta humanitar məsələlərdə belə - məsələn Beynəlxalq Qırmızı Xaç Komitəsinin himayəsi altında münaqişədə itkin düşmüş şəxslər haqqında məlumat mübadiləsinin aparılmasında - əməkdaşlıq etmək istəmədiyini söyləmişdir. P.Andriyö buna cavab olaraq ermənilərin son vaxtlarda bu məsələdə mövqelərin müsbətə doğru getdiyini deyərək, Fransa tərəfindən BQXK-nə layihənin gerçəklənməsi üçün 300 min avro həcmində vəsait ayirdığını söyləmişdir.

Bundan sonra səfir həmsədrlərin yaxın gələcək üçün planları ilə maraqlanmışdır.

P.Andriyö cavab olaraq, yaxın həftələrdə, son hadisələri nəzərə alaraq, həmsədrlərin regiona səfərlərinin nəzərdə tutulmadığını bildirmişdir. Bununla belə, Azərbaycan və Ermənistan Prezidentlərinin bu ilin aprel ayında Vaşinqtonda keçiriləcək Nüvə Təhlükəsizliyi Sammitinə qatılacağı təqdirdə ölkə başçıları arasında görüşün təşkil edilməsi istiqamətində müəyyən addımları nəzərdən keçiriləcəkləri dilə gətirmişdir. O, Rusiya tərəfindən edilən son təklifdən xəbərdar olduğunu və bu təkllifin ABŞ və Fransa tərəfindən dəstəkləndiyini qeyd etmişdir. O, Rusiyanın hər iki tərəflə bu yaxınlarda müvafiq məsləhətləşmələr apardığını, Azərbaycan tərəfinin ümumi olaraq təkliflərdə sərginlənən yanaşmaya müsbət münasibət bildirildiyi, Ermənistan tərəfindən isə onu güya qəbul edilmədiyini söyləmişdir.

Səfir cavab olaraq, Ermənistan tərəfindən həmsədrlərin təkliflərinin qəbul edilmədiyinin P.Andriyönün özünün də etiraf etdiyini onun diqqətinə çatdırmış və münaqişənin həllinə nail olunması üçün Ermənistana təzyiq göstərilməsinin zəruri olduğunu vurğulamışdır.

Sonda P.Andriyö, yaranmış status-kvonu ölü nöqtədən tərpətmək istəyən Fransa prezidentinin münaqişənin həlli üçün səylərini bundan sonra da davam etdirmək əzmində olduğunu qeyd etmişdir və bunu MQ-nun digər iki həmsədr ölkələri ilə əlaqələndirilmiş şəkildə etmək düşündüyünü bildirmişdir. Bu haqda F.Olland, 28 yanvarda erməni diaspor təşkilatları tərəfindən təşkil edilmiş şam yeməyi vaxtı edilmiş çıxışında da vurğulamışdır.

Məlumat üçün təqdim olunur.

Hörmətlə,

Səfir Elçin Əmirbəyov

İcraçı: N.Hüseynova